yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur










2 YERBAZLIĞIN ANATOMİYASI

3 YAS MƏRASİMLƏRİMİZ VƏ DUA

4 KAĞIZ PARÇASI

6 XARİCDƏ TƏHSİL



HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

31 MART 2018-Cİ İL

№004 (63)


**PREZİDENT GİORGİ MARQVELAŞVİLİ VƏ BAŞ NAZİR GİORGİ KVİRİKAŞVİLİ AZƏRBAYCANLILARI NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİB. PREZİDENT VƏ BAŞ NAZİR TSXİNVALİDƏ NAMƏLUM ŞƏRAİTDƏ ÖLƏN ARÇİL TATUNAŞVİLİNİN MEYİTİNİN ÖLKƏYƏ QAYTARILMASI İLƏ ƏLAQƏDAR BU İL NOVRUZ ŞƏNLİYİNƏ QATILA BİLMƏYİB. TƏBRİK MÜRACİƏTİNİ MARTIN 21-İ KVEMO KARTLİ QUBERNATORU QRİQOL NEMSADZE ƏHALİYƏ ÇATDIRIB.**





**Prezidentin təbriki:**

"Novruz bayramınızı – yazın, yeni doğuluşun, ümid və sevginin bayramını təbrik edirəm. Biz – Gürcüstan vətəndaşları birgə ölkəmizi canlandıracaq sərvət yaradırıq: əmək və əməksevərlik – bu, məhz Azərbaycan xalqını gözəlləşdirən zənginlikdir və başqa millətlər üçün nümunədir. Cəsarətlə dövlətimizin qurulmasına əməyinizlə verdiyiniz qatqıya görə qürur duya bilərsiniz. Bu gün mən sizinlə birlikdə deyiləm, amma sizin yanınızdayam. Bugünkü şənliklə yanaşı matəmimiz də var. Soydaşımız Arçil Tatunaşvilinin həlak olmasına görə matəmdəyik və onun cəsədini dünən gətiriblər. Bilirəm ki, belə çiyin-çiyinə duraraq güclü və azad Gürcüstan quracağıq! Bir daha sizi təbrik edirəm və sizə uğurlar arzulayıram!"

**Baş nazirin təbriki:**

"Mənim qardaşlarım, əziz azərbaycanlılar! Novruz bayramınızı təbrik edirəm! Bu gözəl bayram – yeni ilin qədəm qoyması, yazın, yeniliyin, həyat və sevgi günü münasibətilə sizi təbrik edirəm! Sizin şənliyinizə qoşuluram, səmimi qəlblə sizin sevincinizə şərikəm. Biz bir ölkənin övladlarıyıq. Bizim əcdadlarımız birgə yaşayırdılar, çiyin-çiyinə çalışırdılar, Gürcüstana xidmət göstərirdilər, həmişə çətinlikdə bir-birinə dəstək olurdular. Biz də beləyik və bu ənənəni bizim övladlarımız davam etdirəcək.

Biz hər şey edirik ki, ölkədə vətəndaşların, sizin imkanlarınızı realizə etməniz və ictimai həyata daha çox qoşulmanız üçün hər bir şərait olsun.

Mən sizin tarixi vətəninizlə əlaqənizi itirməməyinizi alqışlayıram. Azərbaycan Gürcüstana sadiq dost ölkə və strateji tərəfdaşdır. Bilirəm ki, bu sizin üçün çox dəyərlidir. Biz birgə öz ölkəmizin gələcəyini qururuq və mütləq birgə bütöv, güclü Gürcüstanda yaşayacağıq.

Mən həmişə olduğu kimi, bu gün də sizinlə birgə Novruz bayramını qeyd edərdim. Ancaq indi ağır məqamlar yaşayırıq. Bizim soydaşımızın ölümünə hörmət etməliyik. Ona görə də təəssüf ki, fiziki olaraq sizin yanınızda deyiləm.

Bir daha səmimi qəlbdən sizi Novruz bayramı münasibətilə təbrik edirəm! Sizə sülh, xoşbəxtlik, sevinc, tərəqqi və güclü olmağı arzulayıram."

## ƏRDOĞAN TRAMPA ÇAĞIRIŞ EDİB



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bir daha Suriyanın Menbic bölgəsinin PKK terror təşkilatının Suriya qolu PYD/YPG-dən təmizlənəcəyini bəyan edib.

R. T. Ərdoğan PYD/YPG terrorçularının və ABŞ əsgərlərinin Menbicdən çıxmayacağı barədə ABŞ Dövlət Departamenti və Pentaqon sözçülərinin bəyanatına sərt reaksiya verib.

Türkiyə prezidenti bildirib ki, ABŞ əsgərlərinin, ümumiyyətlə, Menbicdə olmağa haqqı yoxdur: "ABŞ-ın əsgərlərinin Menbicdən çıxmayacağını bəyan edirlər. ABŞ-ın Menbicdən çıxmağı bir kənara, ABŞ-ın, ümumiyyətlə, orada olmağa haqqı yoxdur. 11-12 min kilometrdən bura niyə gəlirsən? Bu torpaqlar sənindir? Bu torpaqlarla nə əlaqən var? ABŞ o torpaqlara PYD/YPG terrorçularını yerləşdirib, oradan ərəbləri qovdu. Türkiyə Menbic başda olmaqla, sərhədində terror təhdidi aradan qaldırılana qədər dayanmayacaq. Biz bu yola baş qoyduq. Kimin cəsarəti varsa, buyursun, meydana çıxsın. Mən artıq ABŞ prezidenti Donald Trampdan həddini aşan bu bəyanatların qarşısını kəsməsini gözləyirəm. Medianın kölgəsində verilən bəyanatlarla biz bu işi apara bilmərik".

Türkiyə prezidenti son dövrlər PKK terrorçularının fəallaşdığı İraqın Sincar bölgəsinin də terrorçulardan təmizlənməli olduğunu vurğulayıb: "Əgər İraq hökuməti bu yerləri terrorçulardan təmizləməyəcəksə, biz Sincarı PKK-dan təmizləyərik".

## PARLAMENT SƏDRİ AZƏRBAYCANLILARI NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİB



Gürcüstan parlamentinin sədri İrakli Kobaxidze ölkənin azərbaycanlı vətəndaşlarını Novruz bayramı münasibətilə təbrik edib:

"Bu gün gözəl bahar bayramını qeyd edən vətəndaşlarımızı təbrik edirəm. Biz güclü dövləti bir ailə kimi bir yerdə qururuq. Novruz bayramı Gürcüstanda əsrlər boyu qeyd olunur. Sizə xoşbəxtlik, sülh və əmin-amanlıq arzu edirəm".

## KAXA KALADZE AZƏRBAYCANLILARI NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİB

"Novruz bayramı münasibətilə sizi təbrik edirəm və sizə sülh və çiçəklənmə arzu edirəm". – Bu sözlərlə Tbilisi meri Kaxa Kaladze paytaxtda yerləşən M. F. Axundov adına Azərbaycan Mədəniyyət Mərkəzində azərbaycanlıları Novruz bayramı münasibəti ilə təbrik edib.

Bayramla əlaqədar muzeyə baş çəkən mer qeyd edib ki, Tbilisi müxtəlif millət və dinləri təmsil edən insanların birgə yaşaması baxımından ən yaxşı nümunədir. K.Kaladze ilə görüşdə azərbaycanlı ziyalılar və ictimaiyyət nümayəndələri iştirak edib.



# YERBAZLIĞIN ANATOMİYASI

Azər Musaoğlu
*azermusaoghlu@gmail.com*

**Yerbaz – yer və baz sözlərinin birləşməsindən əmələ gəlmiş isimdir. Yer – yəni üzərində dayandığımız, yeridiyimiz, yaşadığımız və öldüyümüz torpaq sahə; kənd, şəhər, ölkə və s. Yer həm də yaşadığımız planet, Yer kürəsi mənasındadır ki, cümlədə böyük hərflə yazılır. Baz isə, bəzi isimlərin sonuna artırılaraq bir şeyin həvəskarı, maraqlısı, hərisi məhfumunu ifadə edən şəkilçidir. Məsələn, quşbaz, sehrbaz, qumarbaz və s. Yerbaz haralısan sualına cavab verir (adətən haralısan sualını çox verir). Hominidlər fəsiləsinə daxil olan yerbazlar əsasən yerli məhsullarla qidalanır. Yerbazın dini, irqi, cinsi, siyasi baxışı olmur. Yerbazın vətəni yaşadığı şəhərin, kəndin, qəsəbənin, hətta məhəllənin inzibati ərazisindən kənara çıxmır. Yerbazlar bir-birini həmyerlim deyə çağırırlar. Həmyerliləri olmayanları isə yaşadıqları coğrafi, inzibati adlarla çağırırlar, məsələn, qardabanlı, rustavili, tiflisli və s.**

Yerbazdan ötrü vətən, millət, ideologiya üçüncü, dördüncü dərəcəlidir. Yerbaz üçün vətən – yaşadığı yer (evinin olduğu yer), millət – yaşadığı yerin sakinləri, ideologiya – yaşadığı yeri və həmyerlilərini tərifləməkdən ibarətdir. Yerbazın ən böyük düşməni başqa yerbazdır. Yerbaz yerlilərindən başqalarını qəbul etmir. Məsələn, yerlisi olan hər hansı bir tamada şairi gəncəli Nizamidən, ingiltərəli Şekspirdən üstün tutur. Və ya kolumbiyalı Qabriel Qarsiya Markesi həmyerlisi olmadığına görə oxumur.

Yerbaz vəzifəyə minəndə ətrafına öz yerlilərini toplayır. Yerbaz birinci yerlilərinə salam verir, yerlilərinin toyuna, yasına gedir, yerlilərinin tədbirlərində iştirak edir, baxmayaraq ki, içinin otu-suyu da yoxdur yerlilərini tərifləyib göylərə ucaldır, yerliləri səhv olsa da onlarla həmrəy olur.

Yazını uzatmaq istəmirəm. Yerbazlar haqqında kitab yazmaq da olar, film çəkmək də. Belə ki, ulu vətənimizdə bu mövzu üçün münbit şərait var. İnsanlarımızda üzləşdiyim bu lazımsız xüsusiyyət məni bu yazını qələmə almağa məcbur etdi.

Vətəni sevmək imandandır deyiblər. Bəs vətənin hər yerini deyil, bütöv deyil, bir hissəsini sevmək nədəndir əcaba? Yəqin ki, yerbazlıqdan. Biz nə qədər yerbazlıq edəcəyik bütöv ola bilməyəcəyik, millət ola bilməyəcəyik. Millət əvəzinə sakin olacağıq, məsələn Qardabani sakini, Marneuli sakini və yaxud da Bakı sakini. Yerbazlıq etməklə biz heç vətəndaş da ola bilməyəcəyik. Çünki yerbaz qeydiyyatda olduğu yaşayış yerinin vətəndaşıdır. Nə fərqi var axı, mən marneuliliyəm, qardabaniliyəm, ya bolnisili? Mən də sənin dilində danışıram axı. Tariximiz eynidir axı. Gör gözünü nə qədər qan örtübsə ən azı pasportlarımızın eyni olmasına belə əhəmiyyət vermirsən. Şəxsiyyət vəsiqəsini daha üstün tutursan. Hələ milli bağları yazmıram, yazan da deyiləm. Yazsam nə dəyişəcək ki.

Bizim ən çox işlətdiyimiz sözlərdən biri də inteqrasiya sözüdür – gürcü cəmiyyətinə inteqrasiya. Axı biz hələ özümüz özümüzə inteqrasiya olmalıyıq. Hələ kompakt yaşadığımız regionlar bir-birinə inteqrasiya olmalıdır. Axı hələ xanlıqlar dövrüdür. Biz hələ də bir-birimizi görəndə, tanış olanda əvvəlcə haralısan deyə sual veririk. Nə fərqi var axı, tiflisliyəm, bakılıyam, ankaralıyam... Sənə mənim haralı olmağım niyə bu qədər maraqlı və önəmlidir?

Dünya xalqlarının bütün sahələrdə bir-birinə qaynayıb-qarışdığı bir dövrdə (inteqrasiya da elə budur) sən konsertdə mənimlə yanaşı oturmursan, gedib yerlilərinlə oturursan. Mənim kitabımın təqdimatına gəlmirsən, yerlilərinin kitabının təqdimatına gedirsən. Mənim tədbirimə qatılmırsan, yerlilərinin tədbirinə qatılırsan. Qəzetində mənim adımı yazmırsan, yerlilərinin adını yazırsan və daha nələr nələr. Çünki sən yerbazsan.

**Mən yerbaz olmaq istəmirəm, mən səninlə Yerli olmaq istəyirəm, "Yer" sözünün böyük hərflə yazılanından. Onsuz da hamımız Yerliyik. Ümumiyyətlə, haralı oluruq olaq, "baz" şəkilçisini adımıza qoşmayaq. Bu yazını yazanda Azərbaycan dilinin izahlı lüğətinə baxdım. Yerbaz sözünü lüğətimizdə tapa bilmədim. Lüğətimizdə olmayan "yerbaz" aramıza haradan girib əcaba?**

# GİORGİ KVİRİKAŞVİLİ: "BU GÜNDƏN ÖLKƏNİN MÜKƏMMƏL KONSTİTUSİYASI VAR"

Parlament Gürcüstan Konstitusiyasının yekun nəşrini qəbul edib. Bu haqda Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili bəyanat verib:

"Bu gündən ölkənin mükəmməl Konstitusiyası var. Yeni Konstitusiya bir tərəfdən sabitlik və plüralizmi təmin edəcək, digər tərəfdən isə konkret qrupa həddindən artıq güc verilməsini istisna edir. Biz Gürcüstanın demokratik inkişafını təmin edəcək Konstitusiya qəbul etdik.

Konstitusiyadan icraçı hakimiyyətə qeyri-proporsional böyük güc verən maddə çıxarıldı. Maddəyə əsasən, Parlamentin baş nazir tərəfindən təşəbbüsü irəli sürülən qanunlayihəni qəbul etmək üstünlüyü yox idi.

Bu tendensiya yeni Konstitusiya nəşrinin işlənilməsi prosesində də davam etdirildi. Biz, idarəçi komanda və icraçı hakimiyyət maksimum dövlət gücünün verilməsinin məhdudlaşdırılması yolu ilə getdik.

Tam məsuliyyətlə deyə bilərəm ki, yeni Konstitusiya nəşrində idarəçi siyasi qüvvənin partiya maraqlarına və onun vəziyyətinin yaxşılaşdırılmasına xidmət göstərən heç bir bənd daxil edilməyib. Biz məqsəd olaraq ölkənin balanslı Konstitusiyasının olmasını və tam şəkildə Parla-



ment idarəetmə modelinə keçməyi götürdük.

Mən əminəm ki, bizim cəmiyyət balanslaşdırılmış Konstitusiya qəbul etməklə ölkənin əldə etdiyi bu tərəqqini müvafiq şəkildə qiymətləndirir. Bu, bizim ölkənin demokratik inkişafının ön şərti və zəmanəti olmalıdır".

G. Kvirikaşvili Konstitusiya Komissiyasına və ictimai dinləmələrdə iştirak edən bütün şəxslərə, ekspertlər qrupuna, şəxsən parlament sədri İrakli Kobaxidze və Konstitusiya dəyişikliklərinə müsbət qiymət verən Venesiya Komissiyasının rəhbəri cənab Canni Bukikkioya xüsusi təşəkkürünü bildirib.

# GÜRCÜSTAN VƏ BELORUSİYA ARASINDA VİZASIZ REJİM HAQQINDA SAZİŞ İMZALANIB

Gürcüstan və Belorusiya arasında vizasız rejim haqqında saziş imzalanıb. Prezident Giorgi Marqvelaşvilinin sözlərinə görə, vətəndaşların vizasız gediş-gəlişi haqqında saziş Gürcüstan və Belorusiyanı yaxınlaşdıracaq, mövcud olan əlaqələri daha da möhkəmləndirəcək. Belorusiyanın prezidenti Aleksandr Lukaşenkonun Gürcüstana səfəri çərçivəsində kənd təsərrüfatı, səhiyyə, təhsil və mədəniyyət, həmçinin digər müxtəlif sahələrdə 11 razılıq imzalanıb.



# ÖTƏN İL GÜRCÜSTANDA 8339 NƏFƏR SOYADINI DƏYİŞDİRİB

2017-ci ildə Gürcüstanda 8339 nəfər soyadını dəyişdirib. Ədliyyə Nazirliyinin məlumatına görə, 2017-ci ildə 1977 kişi və 5467 qadın birbaşa qohumluq soyadını, 418 kişi və 477 qadın isə həyat yoldaşının soyadını götürüb.

2016-ci ildə isə birbaşa qohumluq soyadını 1678 kişi və 5497 qadın götürüb. Həmin il 398 kişi və 464 qadın həyat yoldaşının soyadını qəbul edib.

2016-cı ildə 58 nəfər ad və ya soyadını iki dəfə, bir nəfər isə 3 dəfə dəyişib. 2017-ci ildə 59 nəfər ad və ya soyadını iki dəfə, 1 nəfər isə 4 dəfə dəyişib.

# TÜRKİYƏ SƏFİRİ SAMTSXE-CAVAXETİ DÖVLƏT MÜVƏKKİLİ VƏ AXALTSİXE MERİ İLƏ GÖRÜŞÜB

23 mart tarixində Türkiyə Cümhuriyyətinin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan, TİKA-nın Tbilisi nümayəndəliyinin koordinatoru Hüseyn Şanlı, Tbilisi Yunus Əmrə Mərkəzinin rəhbəri Selçuk Kürşad Koca Samtsxe-Cavaxetidə dövlət müvəkkili Akaki Majutadze və Axaltsixenin meri Zaza Melikidze ilə görüşüb.

Görüş çərçivəsində regionda gələcək əməkdaşlıqla bağlı mövzular müzakirə olunub. Səfir Fatma Ceren Yazqan TİKA tərəfindən Samtsxe-Cavaxeti bölgəsində həyata keçirilən layihələrlə də tanış olub.



## TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ: AFRİN TERRORÇULARDAN TAMAMİLƏ AZAD EDİLİB

Türkiyə Silahlı Qüvvələri Afrinin terrorçulardan tamamilə təmizləndiyini və ərazidə nəzarətin bütünlüklə ələ keçirildiyini açıqlayıb.

Hazırda insanların evlərinə təhlükəsiz qayıdışı üçün lazımi tədbirlər görülür. Bu çərçivədə Türkiyə Silahlı Qüvvələri əməkdaşları bölgədə əl qumbaraları və mina təmizləmə işlərini davam etdirir.

Qeyd edək ki, Afrin bölgəsində yanvar ayından başladılan "Zeytun budağı" əməliyyatı çərçivəsində 3 min 733 terrorçunun məhv edildiyi deyilir. Həmçinin 49 türk əsgəri şəhid olub, 228 nəfər isə yaralanıb.

## ƏRDOĞAN ABŞ-IN AFRİNLƏ BAĞLI BƏYANATINA SƏRT REAKSİYA VERİB

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ Dövlət Departamenti və Pentaqon sözçülərinin Suriyanın Afrin bölgəsindəki durumla bağlı narahatlıq keçirdikləri barədə bəyanatlarına münasibət bildirib.

R. T. Ərdoğan sədri olduğu hakim Ədalət və İnkişaf Partiyasının (AKP) parlamentdəki qrup toplantısında çıxışında deyib ki, Türkiyə ilə strateji tərəfdaş olduğunu bəyan edən ABŞ terrorçularla əməkdaşlıq edir.

R. T. Ərdoğan ABŞ-ın Türkiyənin terrorizmlə bağlı qayğılarına etinasız yanaşdığını bəyan edib: "Türkiyə təhlükəsizliyi ilə bağlı narahatlıqlarını bildirən, bu yerləri terror təşkilatlarından birgə təmizləməyi təklif edən zaman harada idiniz? Siz bizə PKK terror təşkilatının Suriya qolu PYD/YPG ilə əməkdaşlıq edərək DAEŞ terror təşkilatını təmizləyəcəyini söyləmişdiniz. "Gəlin DAEŞ-i birlikdə təmizləyək" deyəndə bizə inanmamışdınız. Buyurun, indi Türkiyə ordusunun müxalif Azad Suriya Ordusu ilə birlikdə PYD/YPG-ni necə təmizlədiyinə baxın. ABŞ bir tərəfdən Türkiyə ilə strateji tərəfdaş olduğunu deyir, digər tərəfdən terrorçularla əməkdaşlıq edir. Əgər bizimlə strateji ortaqsınızsa, bizimlə bərabər hərəkət edəcəksiniz. Ancaq ABŞ bizi aldatmağa çalışdı. PYD/YPG terrorçularına 5 min yük maşını silah və texnika verdiniz. Biz pulumuzla sizdən silah almaq istəyən zaman bu silahları bizə satmadınız, ancaq terror təşkilatına həmin silahları pulsuz verdiniz. Bu, necə strateji ortaqlıqdır?! İndi terror təşkilatı qaçır, biz qovuruq. Terrorçulara verdiyiniz silahlar da yavaş-yavaş bizim əlimizə keçir, keçəcək".



Türkiyə prezidenti Afrin əməliyyatı başlayan zaman Qərb ölkələrinin əməliyyatın tez sona çatdırılması barədə çağırışlarını xatırladıb: "Biz Qərb ölkələrinin xahişini yerə salmadıq, 2 ay ərzində Afrində hərbi əməliyyatı bitirdik. Aslanlar meydana çıxanda çaqqallar qaçar. PYD/YPG terrorçularının bizimlə savaşmaq üçün hazırladıqları mövqelər, sığınacaqlar onlara məzar oldu. Mülki şəxslərin arxasında gizlənərək bu qədər dözə bildilər. Əməliyyat zamanı mülki şəxslərə ziyan dəyməsi barədə iddiaların da əsassız olduğunu sübut etdik. Bundan sonra Afrin bölgəsini o yerlərin əsl sahibi olan qardaşlarımız üçün yaşanacaq hala gətirməyə çalışacağıq ".

Qeyd edək ki, bu il yanvarın 20-də Türkiyə ordusu müxalif Azad Suriya Ordusu ilə birlikdə Suriyanın Afrin bölgəsini PKK terror təşkilatının Suriya qolu PYD/YPG-dən təmizləmək üçün "Zeytun budağı" əməliyyatına başlayıb. Martın 18-də Afrin şəhəri nəzarətə götürülüb.

## BOLQARISTANDA AVROPA İTTİFAQI-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNƏ DAİR GÖRÜŞ KEÇİRİLİB

Türkiyə Avropa İttifaqı (Aİ) ilə əlaqələrdə gərginliyi aradan qaldırmağa ümid edir. Bunu Bolqarıstanın Varna şəhərində Aİ liderləri Donald Tusk, Jan-Klod Yunker və Boyko Borisovla görüşündən sonra Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan edib.

"Ümid edirik ki, bu çətin dövrü geridə qoyduq. İttifaq ilə münasibətləri yaxşılaşdırmaq üçün lazım olan addımları müzakirə etdik", - deyə Ərdoğan qeyd edib.

Dövlət başçısı bildirib ki, Ankara Aİ-dən növbəti yardım transını gözləyir, çünki Türkiyə miqrantları nəzarət etmək üçün vəd edilən 3 milyard avrodan hələ ki 1,8 milyard avro alıb: "Türkiyədə artıq təxminən 4 milyon suriyalı qaçqın var. Biz növbəti pul köçürməsini gözləyirik. Bu vəsait bizə bu qaçqınların həyatlarını yaxşılaşdırmağa kömək edəcək".

Ərdoğan həmçinin Ankara üçün vizasız rejimin tətbiq edilməsi işini gücləndirməyə çağırıb. Dövlət başçısı Avropa İttifaqının Afrin əməliyyatına dair tənqidini rədd edərək vurğulayıb ki, terrora qarşı mübarizə Türkiyənin prioritetidir: "Bu, Türkiyə və Avropa İttifaqının ortaq maraqlarına cavab verir".

## RUSİYADA MATƏM ELAN OLUNUB

Rusiyada Kemerovo vilayətində baş vermiş yanğında çoxlu sayda insanın ölməsi ilə əlaqədar martın 28-i tarixi matəm günü elan edilib. Bu barədə Rusiya prezidenti Vladimir Putin sərəncam imzalayıb.

Qeyd edək ki, martın 25-də Kemerovo şəhərindəki "Qış albalısı" Ticarət Mərkəzində yanğın baş verib. Yanğının nəticəsində 64 nəfər ölüb, onlardan 41-i uşaqdı.




## YAS MƏRASİMLƏRİMİZ VƏ DUA



Hacı Bəkiroğlu
*hacibakir@mail.ru*

**Ötən saylarımızda yas yerlərimizdəki adət ənələrimizdən, məzar daşlarından yazmışdıq. Bu dəfə də siz dəyərli oxucularımızın istəyini nəzərə alaraq, sizdən gələn məktublar və zənglər nəticəsində yas yerlərimizdə dua və mərhuma Quran oxumaq haqqında qələmimizi işə saldıq.**

Yas yerində verilən dua o rəhmətliyin günahlarının bağışlanmasını və ailəsinə olan başsağlığı, səbr diləməkdir. Bizlər isə bunu Fatihə surəsini oxumaqla edirik. Çoxumuz da Fatihəni bilmədiyinə görə mollalarımızı vəkil təyin edirik.

Əvvəlcə buna bir aydınlıq gətirək. Bizim ölülərə etdiyimiz dua, istiğfar onlara çatırmı, onlar üçün fayda verirmi? Rəbbimiz buyurur ki: "Onlardan sonra gələnlər: Rəbbimiz! Bizi və bizdən əvvəl inanmış olan qardaşlarımızı bağışla..." (Həşr surəsi, ayə 10). Göründüyü kimi ayəti-kərimədə Allahu Təala "bizdən əvvəlki iman edən" ölmüşlərimizə dua etməmizi öyrədir.

Rəsulullah Əfəndimizin də bu mövzuda yol göstərici bir hədisi vardır. Əbu Useyd Malik ibni Rebia əs-Səidi (r.a) belə dedi: Bir gün biz Rəsulullah (s.ə.s)-in hüzurunda oturarkən Sələməoğulları qəbiləsindən bir adam gəldi və:

-Ya Rəsulullah! Anamla atam öldükdən sonra onlara edə biləcəyim bir yaxşılıq varmı? – deyə soruşdu. Rəsulu Əkrəm belə buyurdu: "Bəli! Onlara dua edər, günahlarının bağışlanmasını diləyərsən, vəsiyyətlərini yerinə yetirərsən, qohumunu qoruyarsan, dostlarına da ikramda bulunarsan".

Bəli, demək ki, ölən bir müsəlmanın arxasından dua etmək ona fayda verir… Yaxşı, bəs ölənə Quran oxunarmı?

Peyğəmbər Əfəndimiz (s.ə.s) belə buyurur: "Ölülərinizə Yasin surəsini oxuyun". Bu hədisi bir səhabədən gəldiyi üçün rədd edənlər də ola bilər, mənasını "ölüm əsnasında" olaraq şərh edənlər də, ancaq bir çox hədis alimi bunu etibarlı qəbul etmişdir və ölüyə Quran oxunacağına dəlil olaraq götürmüşdür. Və bu hədisi şərif də bunu dəstəkləyici mahiyyətdədir:

"İçinizdən biri öldüyü zaman, onu saxlamayın və onu qəbrinə qoymağa tələsin. (Sizdən biri də) Ölünün başında Fatihə surəsini, ayağında da Bəqərə surəsinin sonunu oxusun".

Yenə bu rəvayət, bu hədislərin mənasını gücləndirmişdir. Səhabədən Leclac (r.a) oğluna vəsiyyət edərkən belə demişdir:

"Oğulcuğum! Mən öldüyüm zaman məni məzara basdır! Məni məzarıma qoyduğun zaman belə söylə: Bismilləhi və alə milləti Rəsulullah. Sonra da üzərimə torpaq ataraq onu düzəlt. Daha sonra da, başımda Bəqərə surəsinin baş tərəfini və son qisimini oxu. Çünki mən Həzrəti Peyğəmbərin belə dediyini eşitdim." Bütün bunlar ölünün ardından Quran oxunmasına və savablarının hədiyyə edilməsinə kafi gələn dəlillərdəndir. Məşhur bir hədisi şərifdə ölünün üç şey ilə əməlinin kəsilməyəcəyi bildirilmişdir: 1-insanların faydalanacağı xeyir əməl, 2 - xeyirli övlad, 3- faydalanılan elm…

Xeyirli bir övlad niyə ölüyə faydalı olsun ki? Ya da arxada buraxılan bir elm niyə ölünün dəftərinə yazılsın?

Demək ki, xeyirli bir övladın elmi, gözəl əməli, xeyirli işindən bir hissə ölü valideynlərin əməl dəftərinə də yazılır. Belə olduğu halda o övladın oxuduğu və ruhuna hədiyyə etdiyi Quran necə yazılmasın ki?

Həşr surəsinin 10-cu ayəsində ifadə edildiyi üzrə dualarımız onlara çatırsa, oxuduğumuz Qurani Kərimlər niyə çatmasın?

**Bunun əksinə Peyğəmbər Əfəndimizdən və səhabələrindən də bir rəvayət yoxdur… Ölünün arxasından Qurani Kərim oxuna bilər, istiğfar edilə bilər, onun adına xeyir işlər edilə bilər.**



# KAĞIZ PARÇASI

Şəlalə Əmircanova

**Həyat nədir? Nə üçün bu gün bu tərzdə yaşayırıq? Bu suallar bir çoxlarını düşündürür, məni də həmçinin. Həyat dediyimiz termini yaradan məhz günümüzdə insanların, yəni bizlərin yaşam tərzi, həyata baxış nöqtəsi, ətraf mühitlə əlaqəsidir. Nə üçün yaşayırıq, çalışırıq, qarşımıza minlərcə seçimlər çıxır hansıları ki, nələrisə seçmək, bir çox şeydən imtina etmək məcburiyyətində qalırıq. İnsanın əsasən əldə etmək istədiyi nədir? Mən deyim – lüğətimizdə çox əhəmiyyətsiz, kiçik bir yer tutan, ancaq həyatımızda ən əhəmiyyətli və önəmli sahəni fəth edən bir kiçik mənbənin adı "Pul"-dur. Bizlər həyatda dik durmaq üçün sadəcə tək şeyi əldə etməyə çalışırıq – o da puldur. İnsanlar var ki, yüksək səviyyəli mühitlərdə vəzifə sahibidirlər və qazandıqları pulla kifayətlənmirlər. Əllərindəkinin dəyərini bilmirlər, hər dəfə daha da çoxunu istəyirlər və bu da insan oğlunun əslində necə də naşükür və puldan asılı olduğunu göstərir. İnsanlar var yüksək təhsilli deyil, heç vəzifədə də əyləşmirlər, amma alın təriylə qazandıqları pul onların əməkləridir, bununla yetinirlər və şükr edirlər. Əslində pul sadəcə adi bir kağız parçasıdır, amma heyif ki, həyatımızda baş rolu oynayır. Pulu olan hər kəs önəmli, pulu olmayan isə əksəriyyət tərəfindən yuxarıdan aşağı baxılan baxışlara məruz qalır. Heç kim ehtiyacı olanın halından anlamır, atalarımız nə gözəl deyib: toxun acdan nə xəbəri. Bəs insanlıq hara gedib bilən varmi görəsən?**

Hər şeyi düzgün mülahizə edərsək görəcəyik ki, pisi də, yaxşını da yaradan məhz bizlərik. Dünyamız bu gün bu qədər çirklidirsə, demək ki, bu günə kimi insanlar bir çox şeyi əskik, bəzilərini artiq edib. Çox heyif ki, günümüzdə gənclər dostluqlarını telefonlarının markalarına, sürdükləri maşınların qiymətinə, yaşadıqları evlərin mərtəbələrinə görə seçirlər. Belə getsə artıq salam belə pulla veriləcək. Qədim yunan miflərindən birində deyilir ki, dünyada bir gün sel olur və bundan çox qorxan insanlar təbiətin yaratdığı hadisələrdən qorunmaq və ölümsüz olmaq üçün elə bir qala inşa edirlər ki, hündürlüyü göylərə ucalır və buna qəzəblənən Allah insanları dünyanın müxtəlif yerlərinə dağıdır, dinlərini, dillərini, rənglərini belə fərqləndirir. Bu gün insanların əlacları olsa bunu da edərlər.

**Əslində bizlər bu qədər qəddar olmasaq, həyatın bizə bəxş etdikləri ilə yetinsək, hər şey çox başqa olar. Amma hər şey düzgünlüklə getsə, ədalətli olsaq həyatmız yuxarıda danışdığım "həyat" olmazdı. Məqsədimiz, arzularımız kiçik kağız parçasına bağlanırsa demək necə də dar düşüncəliyik. Kağız parçasının eni də, uzunu da bəllidi. Arzular və məqsədlər isə sonsuz olmalıdır...**

# QARDABANİDƏ, MARNEULİDƏ VƏ TBİLİSİDƏ NOVRUZ BAYRAMI QEYD OLUNUB

*Martın 20-si Qardabanidə Novruz bayramı qeyd olunub. Bayram şənliyində Kvemo Kartli qubernatoru Qriqol Nemsadze, Qardabani meri Ramaz Budağaşvili, Marneuli meri Temur Abazov, Gürcüstan parlamentinin deputatı Savalan Mirzəyev və digər rəsmi şəxslər iştirak ediblər.*

*"Bu bayram yeni ümid, çiçəklənmə və rifah gətirir. Sizin bələdiyyə və bölgənin inkişafında rolunuz böyükdür. Bugünkü tədbir ölkədə tolerantlığın hökm sürdüyünü sübut edir. Gürcülər və azərbaycanlılar qədim Novruz bayramını qeyd etmək üçün xoş əhval-ruhiyyə ilə bir araya gəlib", – deyə Q. Nemsadze Qardabani sakinlərini və qonaqları Novruz bayramı münasibəti ilə təbrik edib.*





*Bayram şənliyi çərçivəsində müxtəlif idman və mədəni tədbirlər, yerli və dəvət olunmuş ifaçılar və rəqs qruplarının iştirakı ilə konsert proqramı keçirilib.*

*Martın 21-i isə Novruz bayramı ilə əlaqədar Qardabani munisipalitetinin təşkilatçılığı ilə Qardabani Mədəniyyət Evində H. Əliyev adına Tiflis Dövlət Peşəkar Azərbaycan Dram Teatrı "Sehirli papaq" tamaşasını nümayiş etdirib.*

*Martın 21-i Novruz bayramı Marneulidə də təntənəli qeyd olunub. Marneuli sakinləri və qonaqlar Azərbaycan və gürcü milli guşələri, Kvemo Kartli bölgəsinin bələdiyyələrinin pavilyonları, rəsm əsərləri və əl işlərindən ibarət sərgilər, müxtəlif mövzulara həsr olunmuş fotosərgilərlə tanış olublar.*




*Tədbirdə çıxış edən Kvemo-Kartli qubernatoru Qriqol Nemsadze prezident Giorgi Marqvelaşvili və baş nazir Giorgi Kvirikaşvilinin bayram təbriklərini oxuyub. Dövlət başçısı və baş nazir azərbaycanlıları bayram münasibətilə təbrik edərək, onlara uğurlar, sevinc, bol bərəkət və rifah arzu ediblər.*

*Bayram şənliyində Gürcüstanın barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Tsixelaşvili, regional inkişaf və infrastruktur naziri Zurab Alavidze, Qaçqınlar və məcburi köçkünlərin işləri üzrə nazir Sozar Subari, Marneuli meri Temur Abazov, Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, Türkiyə səfiri Fatma Ceren Yazqan, Gürcüstan parlamentinin deputatı Ruslan Hacıyev və digər rəsmi şəxslər iştirak ediblər.*

*T.Abazov marneuliləri Novruz bayramı münasibətilə təbrik edib: "Arzu edirəm ki, hər bir gününüz bayram olsun. Sizlərə çiçəklənmə, sevincli günlər və əmin-amanlıq arzu edirəm".*

*Azərbaycan və Türkiyənin səfirləri də çıxış edərək marneuliləri bayram münasibətilə təbrik edərək hər bir azərbaycanlı ailəyə bərəkət, sülh və rifah arzu ediblər. Azərbaycanın Gürcüstandakı səfiri D.Həsənov Azərbaycan prezidenti İlham Əliyevin bayram təbriklərini Gürcüstandakı soydaşlarımıza çatdırıb.*




*Şənliklər çərçivəsində Azərbaycan və gürcü mahnı və rəqslərindən ibarət konsert proqramı da baş tutub.*

*Qeyd edək ki, əvvəlki illərdə Marneulidə keçirilən Novruz şənliklərində Gürcüstan prezidenti Giorgi Marqvelaşvili və baş nazir Giorgi Kvirikaşvili şəxsən iştirak ediblər. Onların bu ilki tədbirə qatılmaması işğal olunan Tsxinvali bölgəsində fevralın 23-də naməlum şəraitdə ölən Gürcüstan vətəndaşı Arçil Tatunaşvilinin meyitinin ölkəyə qaytarılması ilə bağlıdır.*

*Novruz bayramına həsr edilmiş şənlik martın 25-i Tbilisi şəhərində də keçirilib. Tədbir Tbilisi Meriyası və Gürcüstan Azərbaycanlı Ağsaqqallar Şurasının təşkilatçılığı ilə baş tutub.*





*Tədbirdə çıxış edən təşkilat sədri İsaq Novruzov şənlik iştirakçılarını Novruz bayramı münasibətilə təbrik edərək bayramı qeyd edən bütün xalqlara xoşbəxtlik, sevinc və əmin-amanlıq arzu edib. Sonra çıxış edən Gürcüstan Parlamentinin üzvü Beka Odişariya, şəhərin Krtsanisi rayon administrasiyasının başçısı Levan Caparidze şənliyə qatılanlara Novruz bayramı münasibətilə xoş arzularını çatdırıblar.*

*Tədbir Novruz qəhrəmanlarının tamaşaları, aşıq və xalq mahnıları, "Ceyran" rəqs ansamblının ifasında Azərbaycan və Gürcüstanın milli rəqslərindən ibarət konsert proqramı ilə davam etdirilib.*

# TƏHSİL NAZİRLİYİ MƏKTƏBLƏRİN İNFRASTRUKTURUNU VƏ BÜDCƏSİNİ YERLİ ÖZÜNÜİDARƏETMƏLƏRƏ VERİB

Regionlarda və paytaxt Tbilisidə məktəblərin büdcəsinin idarəsini, bərpa işini və infrastruktur layihələrini artıq mart ayından Təhsil Nazirliyinin əvəzinə yerli özünüidarəetmələr həyata keçirəcəklər. Məktblərin ehtiyacının öyrənilməsi və üstünlüklərin müəyyən edilməsi artıq onların funksiyasına daxildir. Hansı məktəbdə təmir işləri həyata keçirilməlidir, harada yeni məktəb binasının tikilməsi vacibdir – bunları müəyyənləşdirmək üçün özünüidarəetmələrə cari ilin 15 fevralına qədər vaxt verilmişdir. Müxtəlif məktəb direktorları və Təhsil-Resurs Mərkəzlərinin nümayəndələri bələdiyyələrin rəhbərləri ilə işgüzar görüşlər keçiriblər. Fevral ayının sonunda hökumət müvafiq normativ akt qəbul edib və mart ayından artıq infrastruktur layihələrinin başlanması üçün tender elan olunub. Yeni tənzimləmə nəyi nəzərdə tutur, məbləğin kontrolu necə olacaq və məktəblərin bərpa işi nə zaman başlayacaq – bu haqda prosesin nəzarətçisi və təhsil nazirinin müavini Teymuraz Murğulia məlumat verib.

*– Yeni tənzimləmələrə əsasən məktəblərin infrastrukturunu qaydaya salmaq üçün büdcənin istifadəyə verilməsi funksiyasını Təhsil və Elm Nazirliyi yerli özünüidarəetməyə verib. Bu proses dəqiq nəyi nəzərdə tutur?*

– Əvvəldən başlayaq. Bələdiyyə ərazisində prioritetlərin nə olduğuna bələdiyyə özü qərar verir. Əgər indiyə kimi nazirlikdə birinci və ikinci məktəb arasında hansının təmir olunacağına qərar verilirdisə, indi bu qərar yerli bələdiyyə ilə birgə veriləcək ki, harada məktəb tikilməlidir. Lakin qərarın verilməsi tam olaraq bələdiyyənin ixtiyarındadır. Bələdiyyə bizimlə, bizim standartlar və prinsiplərlə əlaqədə olacaq. Biz tövsiyyə verəcəyik, amma məktəblər arasında hansının təmir olunmalı olduğuna bələdiyyə qərar verəcək.

*– Bu tənzimləmə bütün ölkə miqyasında qüvvədədir, yoxsa yalnız regionlara aiddir?*

– Tbilisi də Kutaisi və Xaraqauli kimi bələdiyyədir. Bu tənzimləmə hamıya aiddir. Bu mərkəzləşdirmənin Avropaya inteqrasiya çərçivəsində üstün istiqamətlərindən biridir. Ona görə də, bütün yerli özünüidarəetmələr bərabər şəkildə üstünlüklər üzərində çalışmaq öhdəliyi götürürlər.

*– Məktəblərin maliyyələşdirilməsi və infrastrukturun tənzimlənməsi məsələsinin rayon bələdiyyələrinə verilməsi prosesi haqqında çalışmalar nə zaman başlayıb?*

– Çalışmalar keçən il başlayıb. Hökumət ilin başlanğıcında nazirdən məlumat dinlədi və təsdiqlədi ki, bu model düzgün modeldir. Memorandum imzalandı. Öz prioritetləri haqqında məlumat vermək üçün bələdiyyələrin 15 fevral tarixinə qədər vaxtı var idi. Nazirliyin birgə görüşləri çərçivəsində mart ayından tender elan olundu. Məktəb boş olanda isə işlərə başlanılacaq.

*– Nazirlik tərəfindən bu prosesi kim idarə edir?*

– Nazirlikdə bu sahə, həmçinin infrastruktur məsələləri də mənə tapşırılıb. İnfrastruktur Nazirliyindən isə regionların kuratoru olaraq Kaxa Quledani prosesə qoşulub.

*– Büdcənin verilməsi necə olacaq, bu proses hansı prinsiplərlə həyata keçiriləcək?*

– Məncə, ürəyimin və ruhumun rahat olmasına görə, məbləğ faktiki yerinə yetirilmə qaydası ilə verilsə daha yaxşı olar. Bu məqsəddən kənar xərcləmələri də istisna edir.



*– Yəni əvvəlcə konkret iş həyata keçiriləcək və sonra məbləğ köçürüləcək?*

– Əlbəttə, avans mövzularını kimə lazımdır, hamı üçün qaydasına salacağıq. Belə növ layihələr üçün avans maksimum 20-30 faizdir. Real məbləğin köçürülməsi faktiki yerinə yetirmə ilə olacaq. Bu isə o deməkdir ki, məbləğin məqsəddən kənar istifadəsi mümkünsüz olacaq.

*– Tender üçün məbləğlər büdcədə nəzərdə tutulub?*

– Bəli. Və müvafiq olaraq onların təslim edilməsi prosesi olacaq.

***Gürcü dilindən tərcümə:***
***Aynurə Əliyeva***

# 2018-Cİ İLİN VAHİD MİLLİ İMTAHANLARINA 30 MİNDƏN ÇOX ABİTURİYENT QEYDİYYATDAN KEÇİB

***2018-ci ilin Vahid Milli İmtahanlarına artıq 30 000-dən çox abituriyent qeydiyyatdan keçib. Bu haqda Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinin rəhbəri Maia Miminoşvili məlumat verib.***

"İndiki mərhələdə 30 000-dən çox abituriyent qeydiyyatdan keçib, ancaq həmişə olduğu kimi hər şeyi son gündə edirik və sonuncu gündə qeydiyyat olanların sayı daha da artır. Bundan dolayı, yəqin ki, qeydiyyat olanların sayı 40 000-i keçəcək", - Maia Miminoşvili bildirib.

***Milli İmtahanlar Mərkəzinin rəhbəri bir daha abituryentlərə bildirib ki, qeydiyyatın ilkin mərhələsindən tam keçmək vacibdir və abituriyentlər qeydiyyat zamanı diqqətli olmalıdırlar.***

"İlk növbədə abituriyentlər mütləq qeydiyyatdan keçməlidirlər. Burada qeydiyyat üçün vacib olan qrafaların doldurulması nəzərdə tutulur. İmtahan vermək üçün şəhəri düzgün seçməlidirlər. Çünki sonra bu məlumatları dəyişə və qeydiyyatdan keçə bilməyəcəklər. Qalan hər şeyi dəyişmək imkanları olacaq. Mən seçimi nəzərəd tuturam. İmtahan verəcəkləri fənni və ali təhsil müəssisələrini, təhsillərini davam etdirmək istədikləri proqramı dəyişə bilərlər. Bu mərhələ 15 may tarixinə kimi davam edəcək və bundan sonra onlar imtahan üçün fənni, imtahan verəcəkləri dili dəyişə bilməyəcəklər. Ancaq onların 15 avqust tarixinə qədər təhsil müəssisəsi və proqram seçimini dəyişmək imkanları olacaq.

Ona görə də, abituriyentlər diqqətli olmalıdırlar ki, qeydiyyatdan tam şəkildə keçsinlər. Əmin olsunlar ki, göstəriciləri bizim bazaya düşüb. Bunu qeydiyyatdan dərhal sonra onların elektron poçtlarına göndərilən mesaj təsdiqləyir. Əgər mesaj getməyibsə, deməli qeydiyyat başa çatmayıb və güman ki, "yadda saxla" düyməsinə basmağı unudublar," – deyə Maia Miminoşvili vurğulayıb.

***Abituriyentlərin diqqət etməli olduğu məsələlərdən biri də ali təhsil müəssisələrinin avtorizasiya-akreditasiyası ilə bağlı olan, məlumat vərəqəsinə daxil olunmalı dəyişikliklərdir.***

"Ötən illərdə abituriyentlərin dəyişiklik daxil etmək üçün apelyasiya bitənə qədər vaxtları var idi. Bu il apelyasiya işlərinin düzəldilməsi prosesi üşün də abituriyentlərə vaxt əlavə etmişik. Bunun səbəbi isə odur ki, onlara yekun seçim etmək üçün daha çox vaxt verək. Bəzi ali təhsil müəssisələrində avtorizasiya-akreditasiya prosesi gedir.

Ola bilsin ki, plansız şəkildə başqa ali təhsil müəssisəsinə daxil olsunlar və böyük ehtimalla tələbə və abituriyentlərin qəbulunu elan etmiş təhsil



müəssisələrinin siyahısı dəyişəcək. Ona görə də, bütün abituriyentlərdən xahiş edirəm ki, 15 avqusta qədər siyahını yoxlasınlar. Çünki seçdikləri proqramın akreditasiyası və ya ali təhsil müəssisəsinin avtorizasiyası ləğv oluna bilər, onlar konkret seçimlərindən də kənar qala bilərlər. Ona görə də, bizim çatdıracağımız bu kimi yenilikləri izləsinlər", - deyə Milli İmtahanlar Mərkəzinin rəhbəri qeyd edib.

***Hazırladı: Aynurə Əliyeva***



# XARİCDƏ TƏHSİL



İrlandiyaya qədər Avropa haqqında sadəcə oxumuş, eşitmiş və düşünmüşdüm. Təsəvvürümdə canlandırdığım Avropanı tam olaraq özündə əks etdirirdi İrlandiya: küçələri təmiz, insanları gülərüz və xoşbəxt, təhsili yüksək və s. Danışdıqca bitməyən İrlandiya hekayəmi bu dəfə sadəcə təhsil mövzusu ilə məhdudlaşdıracaq, sizə sadəcə təhsil həyatı haqqında danışacam.

İrlandiyadakı təhsil həyatı Gürcüstandakından bir çox xüsusiyyəti ilə fərqlənir. Aşağıda bəziləri barədə məlumat verəcəm:



Limerick Universiteti, Sosiologiya fakultəsi
*Nərminə Hüseynova*

***Kampusdakı şərait*** – Universitetin kampusu şəhər içində ayrıca bir şəhər idi sanki. O dərəcədə böyük idi ki, ortasından çay axırdı və kampusun (ümumi universitet ərazisinin) iki böyük hissəsi bir-birilə uzun və gözəl körpü ilə əlaqələnmişdi. Universitetin bir neçə restoranları, kafeləri var idi. Bundan əlavə, hətta binasının biri böyük alış-veriş mərkəzinə bənzəyirdi, içində "Subway"dən tutmuş, "Starbucks"a kimi məşhur məkanlar var idi. Çox sayda binalarından biri üçmərtəbəli idman binası idi, içində üzmək hovuzundan tutmuş məşq zalına qədər var idi. Üçmərtəbəli binalardan biri isə kitabxana idi, içində kompüter otağı, printer otağı, oxu zalı, ümumi tapşırıq etmək üçün qrup zalı, kafesi var idi. Kitabxanada tələbə müstəqil olaraq hər şey edirdi. Belə ki, tələbə kartının ona verdiyi xeyli sayda üstünlüklərdən biri də o idi ki, kitabxanaçını gözləmək üçün uzun sırada durmaq əvəzinə, kitabı kitabxanadan götümək üçün xüsusi aparmaq və qaytarmaq aparatlarından istifadə edir, kitabı götürərkən xüsusi aparat üstündə kitabı geri qaytarmalı olduğu tarixi yazan kağız verir, vaxtında qaytarmadıqda isə tələbə kartına cərimə gəlirdi. Printerdən istifadə də müstəqil idi, çünki hər bir tələbənin tələbə IT-si deyə bir hesabı var idi. Tələbə bu hesabla kitabxanadakı kompüterə daxil olub öz sistemini açır, tələbə kartına əvvəlcədən yüklədiyi məbləğlə də bu sistem vasitəsi ilə çap edirdi. Kitabları kitabxanadaca skan etmək mümkün idi, özü də pulsuz. Bunlardan əlavə, universitet ərazisində xüsusi masalar və oturacaqlar var idi. Universitetdə ala bilməyən, evindən yemək gətirən tələbə asanlıqla orada oturub yemək yeyə bilərdi. Dindar tələbələri də düşünmüşdü universitet. İki kiçik ibadətgahı var idi öz kampus ərazisində – biri müsəlman, digəri isə xristian tələbələr üçün. Onlar ora daxil olub rahat ibadət edə bilirdilər. İnkişaf etmiş nəqliyyat vasitələri və qaydaları da tələbələri sağlam və təhlükəsiz nəqliyyat vasitəsi olan velosipedlə hərəkət etməyə təşviq edirdi. Buna görə universitetdə avtomobil dayanacağından əlavə, çoxlu sayda velosiped dayanacaqları da var idi.

***Universitet işçilərinin davranışı*** – Sanki şəhərin, ölkənin özündə, eləcə də universitetdə insanlar "gəl, məndən bir şey xahiş et" deyirdilər. Necə deyərlər, canla-başla insanın qulluğunda hazır idilər. Gedib onlardan kömək istəyirdin, sonda onlar özləri sənə təşəkkür edirdi. Yadımdadır, bir dəfə, semestrin sonu, imtahanlar ərəfəsi idi. Kompüter otağında esse yazırdım, mənə təcili bir kitab lazım oldu. İkinci mərtəbəyə qalxıb axtarsam da tapa bilmədiyim kitabı elə orada kitabları rəflərə düzən kitabxana işçisindən soruşdum. O isə xəbəri olmadığını dedi. Aşağı düşüb yazıma biraz olar davam etmişdim ki, gördüm həmin xanım əlində mən istədiyim kitabla aşağı düşüb mənə tərəf gəlir. Kitabı verib, mənə uğurlar arzu edib işinə dönmüşdü. Xatırladım ki, universitetimizdə minlərlə tələbə oxuyur və üstəlik imtahanlar ərəfəsində kitabxanada yer üçün tələbələr səhərdən növbəyə dururdular, özü də üçmərtəbəli kitabxanada. Bu qədər tələbənin içində o kitabxana işçisi hər bir tələbəyə ayrı-ayrılıqda etdikəri, dəyər verdikləri kimi məni unutmamış, mənə qayğı göstərmişdi.

***Müəllimlər*** – Gürcüstanda müəllim əlçatmaz olarkən (hamısı üçün demirəm) İrlandiyada hər bir müəllimin öz otağı və iş saatları var. Tələbənin tam haqqı var ki, müəllimə bir neçə gün əvvəlcədən e-mail yazaraq müəllimlə görüş gününü və saatını təyin etsin. Müəllimin isə borcudur ki, tələbəyə onun istədiyi vaxtda zaman ayırıb, onunla maraqlandığı məsələni müzakirə və həll etsin. Bir dəfə essemə 300-dən çox tələbəsi olan müəllimim gözlədiyimdən aşağı bal yazmışdı. Təsəvvür edin, professor məni otağına qəbul etdi, biz oturub yazımı müzakirə etdik. O, ərinmədən, tam təmkin və gülərüzlə essemi yenidən oxuyub, üzərinə rəylər bildirdi.

Mühazirələr və seminarlar ayrı-ayrı gündə hərəsi sadəcə 50 dəqiqə davam edirdi. Bu isə tələbəni yormur, mövzudan bezmədən müəllimi dinləməyə şərait yaradırdı. Müəllimlərdə gecikmək söhbəti olmazdı, 00-da başlayıb, tam 50 dəqiqədə də bitirirdilər.

***Akademik qaydalar*** – Essemdən danışmışkən, universitetdə tələbənin riayət etməli olduğu akademik qaydalar var idi. Hər nə qədər çox bilsən də, tapşırığın səndən tələb etdiyindən artığını yazmamalı idin. Mənim essemin problemi də o idi ki, məndən istənilən sadəcə təsvir idisə, mən müqayisəli analiz yazmışdım. Bundan əlavə, akademik plagiarizmə qarşı çox diqqətli idilər. Gürcüstanda bu haqda sadəcə eşitmişdimsə, orada buna görə aşağı bal alan tələbələr var idi. Sadəcə mətndaxili və sonda istifadə olunan mənbənin necə qeyd olunması qaydaları barədə bəlkə də müəllimlərdən tutmuş, universitetin akademik yazı mərkəzinin işçilərinə qədər, 10-dan çox təlim keçdilər bizə.

İrlandiyanın Limerick Universitetindəki bütün bu imkanlar, daxilində əyləncə klublarının və restoranlarının, təmirli kitabxanasının və idman binasının, ibadətgahların, gülərüz və məsuliyyətli universitet işçilərinin və müəllimlərinin olması, bütün akademik dürüstlük və dəqiqlik tələbəyə sadəcə bir şeyi deyir – Biz sənin ayağına hər şəyi gətirmişik, sən sadəcə OXU, səndən istədiyimiz isə sadəcə odur ki, nizamlı-intizamlı ol (vaxtında gəl-get) və kimsənin haqqını yemə (akademik plagiarizmə yol vermə). Tələbəyə bundan artıq dəyər verilməzdi məncə. Yuxarıda hər şeyi bu qədər ətraflı təsvir etməyimdə də məqsəd sırf bu xırdalıqlarda yerləşən diqqəti və qayğını çatdırmaq idi. Hər kəs gedib ömründə bircə dəfə oradakı təhsili dadmalıdır məncə. Bu yazını oxuyan şagirdə, tələbəyə, və ya onların yaxınlarına demək istəyirəm ki, ora getmək üçün sadəcə 3 şey lazımdır: ingilis dilini bilmək, Gürcüstandakı universitetdə yüksək qiymətlərin olması və İSTƏK. Xeyr, pul lazım deyil! Mənim getdiyim Erasmus proqramı deyir ki, sənin pulun lazım deyil, sən sadəcə gəl, sənin təhsil haqqını tamamilə ödəyib, özünə isə ayda 900 avroyadək təqaüd verirəm. Elə isə, gedin İrlandiyaya!

## GÜRCÜSTANDA MƏHBUSLAR HANSI İXTİSASLARA YİYƏLƏNƏ BİLƏCƏKLƏR – PROQRAMLARIN SİYAHISI VƏ TƏDRİS QAYDALARI

Gürcüstanda məhbuslar tərəfindən akademik ali təhsilin birinci pilləsində (bakalavr) təhsil almaq qaydası, şərtləri və müvafiq ixtisasların siyahısı müəyyən edilib. Konkret olaraq, məhbusların akademik ali təhsilin birinci pilləsində (bakalavr) təhsil almaq hüququndan istifadə edə biləcəyi ixtisasların siyahısı:

1. **Biznesin idarəsi istiqaməti:**
   - Mühasibat
   - Marketinq
   - Menecment
   - Maliyyə
2. **Mühəndislik istiqaməti – Kompütinq/informatika.**
3. **Elmi/təbiətşünaslıq elmləri istiqaməti:**
   - Riyaziyyat
   - Coğrafiya
4. **Hüquq istiqaməti – Hüquqşünaslıq**
5. **Sosial elmlər istiqaməti:**
   - İqtisadiyyat
   - Siyasi elmlər
   - İctimai coğrafiya
   - Sosiologiya
   - Psixologiya
   - Mədəni irs
   - Demoqrafiya
6. **İncəsənət istiqaməti:**
   - Dizayn
   - Təsviri sənət
7. **Humanitar elmlər istiqaməti:**
   - Etnologiya
   - Teologiya
   - Tarix
   - Filologiya
   - Filosofiya
   - Sənətşünaslıq/incəsənət tarixi və nəzəriyyəsi.
8. **İstiqamətlərarası sahələr və ya ixtisaslar:**
   - Sosial çalışma
   - Turizm
   - Regionşünaslıq
   - Antropologiya

Bundan əlavə təhsil və cəzaçəkmə müəssisələri nazirlərinin birgə sərəncamına əsasən sonrakı istiqamətlər müəyyən olunub:

1. Məhbusun akademik ali təhsil almaq hüququ
2. Nazirliyin öhdəlikləri
3. Gürcüstanın Təhsil və Elm Nazirliyinin öhdəlikləri
4. Ali təhsil müəssisələrinin öhdəlikləri
5. Məhbusun ali təhsil müəssisələrinə qəbul prinsipi
6. Məhbusun akademik ali təhsil almasının təşkil olunması
7. Məhbusa akademik ali təhsil verilməsi
8. Məhbusun və akademik əməkdaşların əlaqəsi
9. Məhbusun orta (birdəfəlik və ya çoxsaylı) və yekun dəyərləndirilməsi
10. Ali təhsil müəssisələrinə məlumat vermək prinsipi
11. Başqa ali təhsil müəssisəsinə keçmək prinsipi
12. Məhbusa kvalifikasiya və diplom verilməsi

## QARDABANİ BƏLƏDİYYƏSİNİN MERİYASI LAYİHƏ-HESABAT SƏNƏDLƏRİNİN HAZIRLANMASI ÜÇÜN ELEKTRON TENDERLƏR ELAN EDİR

• 21 mart tarixində Krtsanisi kəndində daxili yollara asfalt qatının çəkilməsi üçün layihə sənədlərinin hazırlanmasına dair tender elan olunub. Bunun üçün Qardabani meriyası 2500 lari (əlavə dəyər vergisi də daxil olmaqla) dəyərində məbləğ nəzərdə tutub.

• Qardabani şəhərində Lelaşxa məntəqəsində və Krtsanisi kəndində kanalizasiya şəbəkəsinin bərpa işləri üçün layihə-hesabat sənədlərinin hazırlanmasına dair tender elan olunub. Tenderin təxmini dəyəri 5000 larini (əlavə dəyər vergisi də daxil olmaqla) təşkil edir.

• Qardabani bələdiyyəsinin Kumisi və Axalsopelinin ictimai məktəblərinin bərpa işləri üçün lazımi layihə-hesabat sənədlərinin hazırlanmasına dair tender elan olunub və nəzərdə tutulan məbləğ 5000 lari (əlavə dəyər vergisi də daxil olmaqla) təşkil edir.

## MARNEULİ MERİYASINDA VİZASIZ SƏYAHƏTLƏ BAĞLI MƏLUMAT XARAKTERLİ GÖRÜŞ KEÇİRİLİB

Marneuli meriyasında vizasız gediş-gəliş barədə məlumat kampaniyasının üçüncü dalğası çərçivəsində görüş keçirilib.

NATO və Avropa İttifaqı barədə məlumat mərkəzinin nümayəndəsi Mariam Dolidze və Çoxmillətli Gürcüstanın icraçı direktoru, Şərq Tərəfdaşlığı Vətəndaş Forumunun həmsədri Aleksandra Kalatozişvilinin təşkil etdiyi görüşdə sakrebulonun sədri Amiran Giorqadze, meriya və sakrebulonun rəhbər şəxsləri və əməkdaşları, məktəb pedaqoqları və mövzu ilə maraqlanan digər şəxslər iştirak ediblər.

Görüş iştirakçıları Avropa İttifaqı/Şengen ərazisinə vizasız gediş-gəliş haqqında məlumat alıblar. Tədbirdə Avropa İttifaqı ölkələrində sığınacaq alma prosedurlarının qeyri-düzgün istifadəsi zamanı yaranan risklər və təhlükələr məsələsinə toxunulub. Qanunvericilikdə aparılacaq dəyişikliklər, dövlətin vizasız gediş-gəliş qaydalarının pozulmasının qarşısının alınması məsələsinə də diqqət ayırılıb.

İnformasiya kampaniyasının üçüncü dalğasının məqsədi cəmiyyətə vizasız gediş-gəliş qaydalarını xatırlatmaqdır və qaydaların pozulması, həmçinin Avropa İttifaqı/Şengen ərazisində sığınacaq tələbi prosedurlarının kobud istifadəsi hallarının aradan qaldırılmasıdır.

## MARNEULİDƏ YENİYETMƏ BOKSÇULAR ARASINDA 2018-Cİ İL GÜRCÜSTAN ÇEMPİONATI KEÇİRİLİB



Martın 14-dən 18-dək Marneuli şəhərində, Ata Holdinq idman kompleksində yeniyetmə boksçular arasında 2018-ci il Gürcüstan çempionatı keçirilib. Yarışı təşkil etməkdə məqsəd yığma komanda yaratmaq və perspektivli idmançıları kəşf etməkdir.

Marneuli idman məktəbinin idmançıları çempionatda uğur qazanıblar. İdmançılar I, II və III yerləri tutublar. I yer Qiorqi Jorjoliani (57 kq çəki dərəcəsində), II yer Xəyal Qarabağlı (48 kq çəki dərəcəsində), III yer Eşqin Hüseynov (48 kq çəki dərəcəsində) və Elvin Məmmədov (50 kq çəki dərəcəsində).

Qeyd etmək lazımdır ki, çempionatda 21 bələdiyyənin 141 idmançısı iştirak edirdi.

Tədbirdə mərkəzi və yerli hakimiyyət nümayəndələri, Parlament çoxluğunun nümayəndələri Tamaz Naveriani və Ruslan Hacıyev, sakrebulonun sədri Amiran Qiorqadze, onun müavini Mamuka Naveriani, merin müavinləri Zaur Tabatadze və Laşa Lobcanidze, həmçinin özünüidarəetmənin əməkdaşları və digər dəvətli qonaqlar iştirak ediblər.

## MARNEULİ TELEVİZİYASI PEYK YAYIMINA BAŞLAYIB

Marneuli bələdiyyəsində fəaliyyət göstərən "Marneuli Televiziyası" mart ayından peyk yayımına başlayıb. Televiziya (11095 H 30000) "Azerspace" peykində yayımlanacaq.

Azərbaycandilli xəbərlər buraxılışının jurnalisti Aidə Rüstəmovanın "Yeni Yol" qazetinə verdiyi məlumata görə, yerli kanalda verilişlər və xəbərlər buraxılışı iki dildə - azərbaycan və gürcü dilində yayımlanır. O, televiziyanın peyk yayımına başladıqdan sonra verilişlərin sayının artacağını və ilkin etapda azərbaycan, ingilis dillərində musiqili kliplərin yayımlanacağını bildirib.

## QARDABANİ BƏLƏDİYYƏSİNİN ƏRAZİSİNDƏ OLAN SAHİBSİZ İTLƏR SIĞINACAĞA APARILACAQ

Qardabani meriyası martın 1-də bələdiyyənin ərazisində sahibsiz itlərin sığınacağa aparılması xidmətinə görə hərracdan kənar elektron tender elan edib. Tenderdə fərdi istehsalçı "Giorgi Mağlaperidze" qalib gəlib.

Fərdi istehsalçı "Giorgi Mağlaperidze" tender sənədlərinə əsasən, beynəlxalq standartların tələblərinə uyğun olaraq Qardabani bələdiyyəsi ərazisində sahibsiz itlərin sığınacağa aparılmasını 2018-ci ilin 31 dekabr tarixinə qədər təmin etməlidir.

Sığınacağa aparılmış heyvanlar müayinədən, daha sonra isə sterelizasiya, kastrasiya, vaksinləmə və markerləşdirmədən keçəcəklər. Bələdiyyə ərazisində qeydiyyata alınmış itlər lazımi prosedurlardan sonra təbii sahəyə qaytarılacaqlar. Baytarın nəticəsi əsasında, ağır xəstələnmiş heyvanlar evtanaziyadan keçəcəklər və heyvanlar biotermal rejimə aparılacaqlar.

Müqaviləyə əsasən, təşkilat itlərin tutulmasını ayda ən azı üç dəfə həyata keçirməlidir.

## QARDABANİ MERİYASI YOL İNFRASTRUKTURUNUN QURULMASI ÜÇÜN TENDER ELAN EDİR

Cari ildə Sarticala, Ağtəhlə, Qaratəhlə və Qaracalar kəndlərində yolun 8,21 km-lik hissəsinə asflat qatı çəkiləcək. Layihəyə əsasən, Sarticala kəndində 2,28 km, Ağtəhlə kəndində 1,92 km, Qaratəhlə kəndində 1,54 km, Qaracalar kəndində isə 2,47 km məsafədə asflat qatı çəkiləcək.

Layihə yerli büdcədən maliyyələşir və onun dəyəri 1 282 890 larini təşkil edir. Tikinti işləri üçün dövlət tenderi artıq elan olunub. Təkliflərin qəbulu 16 aprel tarixində başa çatacaq.

Dövlət tenderində qalib gələn şirkətə tikinti işlərini başa vurmaq üçün müqavilənin bağlanmasından sonra 70 gün müddət veriləcək.

## KVEMO KARTLİ QUBERNATORU AZƏRBAYCANLI JURNALİSTLƏRLƏ GÖRÜŞÜB



Kvemo Kartli qubernatoru Qriqol Nemsadze ölkədə fəaliyyət göstərən azərbaycanlı jurnalistlərlə Rustavidə görüşərək onları Jurnalistika günü münasibətilə təbrik edib.

Görüşdə region jurnalistləri ilə yanaşı Azərbaycan Dövlət Televiziyası, "Azad Azərbaycan" televiziya kanalları və APA İnformasiya Agentliyinin Gürcüstandakı müxbirləri də iştirak edib.

Q.Nemsadze jurnalistləri peşə bayramı münasibətilə təbrik edib və onlara fəaliyyətlərində uğurlar arzu edib: "Sabah həm də azərbaycanlıların Novruz bayramıdır. Bu xoş bayram münasibətilə azərbaycanlıları təbrik edirəm. Gürcüstanda yaşayan hər bir azərbaycanlı ailəyə bol sevinc və firavanlıq arzulayıram".

Görüşdə Kvemo Kartli qubernatorunun müavini Zaur Dərğallı və digər rəsmi şəxslər də iştirak edib.

Sonda jurnalistlərə hədiyyələr təqdim olunub.

Qeyd edək ki, Gürcüstanda Jurnalistika günü 1993-cü ildən martın 21-də qeyd olunur.

## BATUMİDƏ YENİ MULTİMODAL TERMİNALIN İNŞASINA BAŞLANILACAQ

"Son illərdə Mərkəzi Asiya ölkələri və Azərbaycanda kimya sənayesinə böyük həcmdə investisiyaların qoyulduğunu müşahidə edirik". Bu barədə Gürcüstanın maliyyə naziri Mamuka Baxtadze Batumi limanında yeni terminalın inşası ilə bağlı investisiya razılaşmasının imzalanması mərasimində deyib.

Nazir bildirib ki, bu investisiyalar Gürcüstana Xəzər dənizi hövzəsində yaxın gələcəkdə yaranacaq yüklərin cəlb olunması üçün nəqliyyat infrastrukturunu inkişaf etdirməyə əsas verir.

"Gürcüstan müasir İpək yolu kimi əhəmiyyətli nəqliyyat dəhlizlərinin inkişafında vacib rol oynayır. Biz Anaklia dərin dəniz limanı, Gürcüstan dəmir yollarının modernləşdirilməsi, Bakı-Tbilisi-Qars dəmir yolu, Şərq-Qərb avtomagistralı, Tbilisi və Kutaisidə loqistika mərkəzlərinin inşası kimi çox əhəmiyyətli layihələri reallaşdırırıq. Bu layihələrin məqsədi Gürcüstanı regionda nəqliyyat və loqistika mərkəzinə çevirməkdir və bu da öz növbəsində ölkəyə çoxlu dividentlər gətirəcək, yeni iş yerlərinin yaradılmasına imkan verəcək", - deyə M. Baxtadze bildirib.

Qeyd edək ki, investisiya razılaşmasına əsasən, "Wondernet Express" beynəlxalq loqistika şirkəti Batumidə yeni multimodal terminalın inşasına 20 milyon dollar investisiya yatıracaq. Layihənin reallaşmasından sonra Mərkəzi Asiya ölkələrindən mineral gübrələr Batumi limanı vasitəsilə dünya bazarlarına nəql olunacaq. Yeni müasir terminal Mərkəzi Asiya-Azərbaycan-Gürcüstan loqistika dəhlizinin bir hissəsi olacaq.

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

31 MART 2018-ci İL
№004 (63)

## TBİLİSİDƏ "PALİTRA-İNTEQRASİYA" ADLI AZƏRBAYCANLI RƏSSAMLARIN SƏRGİSİ KEÇİRİLİB

Martın 22-də Gürcüstanın Barış və Vətəndaş Bərabərliyi məsələləri üzrə Dövlət Nazirliyinin təşəbbüsü və Gürcüstan Mədəniyyət və İdman Nazirliyinin dəstəyi ilə, həmçinin Qardabani, Marneuli meriyasının, İnkişaf və Təhsil Mərkəzinin təşkilatçılığı ilə Tbilisidə, Ədəbiyyat Muzeyində azərbaycanlı rəssamlar – Rizvan İsmayıl, Əli Əliyev, Rasim Həsənov və Azər Musaoğlunun rəsm əsərlərindən ibarət "Palitra – inteqrasiya" adlı sərginin açılışı olub. Sərgidə Qardabani və Marneulidən olan rəssamların yağlı boya, akril, quaş və gipsdən hazırlanmış 46 qrafika, rəngkarlıq və heykəllə rəsmin sintezindən ibarət sürreal və apstrakt üslubda işlər nümayiş etdirilib.

Tədbiri jurnalist Aynurə Əliyeva açaraq sərgi haqqında məlumat verib. Sonra tədbirdə çıxış edən Gürcüstanın barış və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Tsixelaşvili azərbaycanlıları Novruz bayramı münasibətilə təbrik edərək sərginin əhəmiyyətinin vacibliyini vurğulayıb: "Mən dövlətin bu kimi məsələlərdə dəstəyə hazır olduğunu təsdiqləmək istəyirəm. Bizim məqsədimiz etnik mənşəyindən asılı olmayaraq hər bir vətəndaşın yaradıcılığının, bacarığının, əl işlərinin göstərilməsi və tanıdılmasıdır. İncəsənətin dili yoxdur. O, beynəlxalq dildədir. Siz bilirsiniz ki, vətəndaş inteqrasiyası və bərabərliyə dair dövlət siyasətinin məqsədi etnik və ya dini mənşəyimizdən asılı olmayaraq hər birimizin bərabər olacağı bir ölkəmizin, ortaq vətənimizin olmasıdır. Hamının maksimum dərəcədə bütün sahələrdə ölkənin həyatına qoşulmaq imkanının olması üçün dövlət hər şey edir və gələcəkdə də edəcək. Bu iqtisadi, siyasi, mədəni və digər sahələr də ola bilər".








Tədbirdə çıxış edən İnkişaf və Təhsil Mərkəzinin rəhbəri Emin Əhmədov sərgidə iştirak edən dövlət nazirinə, onun müavininə, şəhər meri və rayon bələdiyyə rəsmilərinə, deputatlara tədbirdə fəal iştirak etdiklərinə görə təşəkkürünü bildirib və rəssamlara uğurlar arzulayıb.

Sərginin açılışında Gürcüstanın barış və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət nazirinin birinci müavini Laşa Darsia, Gürcüstan parlamentinin deputatları Tamaz Naveriani və Ruslan Hacıyev, Kvemo Kartli bölgəsinin qubernatorunun müavini Zaur Darğallı, Marneuli merinin müavini Zaur Tabatadze və Marneuli bələdiyyəsinin sədri Amiran Giorqadze, onun müavini Mamuka Naveriani, Qardabani şəhər meri Ramaz Budağaşvili, onun müavini Dünyamalı Hacıyev, bələdiyyə sədrinin müavini Rəfi Orucov, Azərbaycan səfirliyinin əməkdaşı Fəxri Hacıyev, GMİ-nin şeyxi Ramin İgidov, müfti Yasin Əliyev, "Salam" Mədəni Xeyriyyə Cəmiyyətinin sədri Maya Rəcəbova, gürcü və azərbaycanlı ziyalılar, Qardabani və Marneulidən gələn qonaqlar iştirak ediblər.



Sərginin təşkilatçılarından biri olan barış və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət nazirinin Kvemo Kartli bölgəsi üzrə müşaviri Ayaz Məmmədov jurnalistlərə müsahibəsində deyib ki, Gürcüstan dövləti Azərbaycan mədəniyyətinə, incəsənətinə, bu ölkədə yaşayan azərbaycanlıların inteqrasiyasına xüsusi önəm verir. Novruz bayramında belə bir sərginin təşkili dövlətin soydaşlarımıza diqqət və qayğısının nümunəsidir.

"Məqsəd Gürcüstanda yaşayan azərbaycanlıların mədəniyyətinin təbliğinə, inteqrasiyasına yardım göstərməkdir. Ona görə də bu cür tədbirlər davamlı olacaq",- deyə A. Məmmədov vurğulayıb.

Qeyd edək ki, sərgi martın 22-dən 24-dək davam edib.

## TİFLİS AZƏRBAYCAN TEATRI BOLNİSİDƏ QASTROL SƏFƏRDƏ OLUB



Martın 24-ü Heydər Əliyev adına Tiflis Dövlət Peşəkar Azərbaycan Dram Teatrı Bolnisi şəhərinin Mədəniyyət Evində "Civil Media" Qrupunun təşkilatçılığı ilə "Sehirli papaq" tamaşasını nümayiş etdirib.

Gürcüstan Azərbaycanlılar Konqresinin (GAK) sədri Hüseyn Yusubov çıxış edərək Tiflis teatrının fəaliyyətinin təqdirə layiq olduğunu və Azərbaycan mədəniyyətinə verdikləri töhvənin önəmli olduğunu vurğulayıb. Daha sonra "Civil Media" Qrupunun rəhbəri Xəyyam İsayev, Bolnisi bələdiyyəsinin sədr müavini İmran Qasımov, Bolnisi bələdiyyəsinin büdcə komitəsinin sədri Vüqar İsayev çıxış ediblər. Sonda teatrın bədii rəhbəri Varlam Nikoladze çıxış edərək azərbaycanlıları gec də olsa Novruz bayramı münasibətilə təbrik edərək tamaşaçılara maraq və diqqətə görə minnətdarlığını bildirib.

Qeyd edək ki, gürcü dramaturqu Georgi Eristavinin "Sehirli papaq" pyesi əsasında hazırlanmış tamaşanı H. Əliyev adına Tiflis Dövlət Peşəkar Azərbaycan Dram Teatrının aktyorları Leyla Qasımova, Şeyla Cəfərova, Fazil Bayramov, Binəli İslamoğlu və Aidə Tağıyeva oynayırlar. Tamaşaya teatrın bədii rəhbəri Varlam Nikoladze yenidən quruluş verib.

## MİLLİ BANK GÜMÜŞ 10 LARİLİK SİKKƏ BURAXACAQ



Milli Bank Gürcüstanın müstəqillik günü ilə bağlı 1500 ədəd gümüş 10 larilik sikkə buraxacaq.

Sikkənin səthində 1918-1921-ci illərdə Gürcüstan Demokratik Respublikasının dövlət simvolları – bayraq və gerb təsvir olunacaq.

Dizaynın müəllifi Mamuka Qonqadzedir. Sikkə cari ilin 15 mayından dövriyyəyə buraxılacaq və onu Milli Bankın mərkəzindən və Ğvareli pul muzeyindən, həmçinin Milli Bankın veb-səhifəsində yerləşdirilən online mağazadan da əldə etmək mümkün olacaq. Sikkənin qiyməti 100 lari olacaq.

## ƏMƏK, SAĞLAMLIQ VƏ SOSİAL MÜDAFİƏ NAZİRLİYİ FÖVQƏLADƏ HALLARIN KOORDİNASİYASI VƏ TƏCİLİ YARDIM MƏRKƏZİNƏ AVROPA STANDARTLI 10 YENİ REANOMOBİL VERİB



Klinikalar arasında ağır vəziyyətdə olan xəstələrin daşınması üçün Əmək, Sağlamlıq və Sosial Müdafiə Nazirliyi Fövqəladə Halların Koordinasiyası və Təcili Yardım Mərkəzinə 10 yeni təcili yardım maşını verib. Səhiyyə naziri David Sergeenko yenilənmiş avtoparkı fövqəladə halların koordinasiyası və təcili yardım mərkəzinin direktoru Avtandil Talakvadze ilə birgə nəzərdən keçirib.

Avropa standartlarına uyğun olan müasir tibbi aparatlarla təchiz olunmuş təcili yardım maşınları ağır vəziyyətdə olan xəstələrin təhlükəsiz daşınmasını təmin edəcək. Reanomobillər nəfəs aparatları, xəstələr üçün reanimasiya monitorları, mayelərin temperaturunu tənzimləyən və bir çox digər vacib müxtəlif növ qurğularla təchiz olunub.

Yenilənmiş avtopark Gürcüstanda təcili yardım xidmətlərinin vəziyyətinin daha da yaxşılaşdırılmasına dəstək olacaq.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər Musaoğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu
Qrafik dizayn:
Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.